# Aci Seçimlər

## Əlirza Bəxşi

**Türkcə Şeirlər**
**Yararlayan:**
**İxtiyar Bəxşi**



**Əlirza Bəxşi- Sentyabr 2004- 29 yaşında**

# Ulu Tanrının adıyla

## Əlirza Bəxşinin tanıtımı

Əlirza Bəxşi 21 Sentyabr 1975-ci ildə, Güney Azərbaycanın Ərdəbil şəhərinin ən tanınmış məhəllələrindən biri olan, Möcüz məhəlləsinin Qəriban məhəlləsinə qovuşan Küçəsində, 114-cü plaki olan ataevində, anadan oldu.

Atası, İdris Bəxşi, gəzərgi çərçi idi. O, xırım-xıda əşyaların alqı-satqısıyla çoxsayılı ailəsinin xərcini çıxardırdı. O, iki yol evlənmişdi və iki xanımından 21 uşağı varı idi. İdris xanımlarının hərdənbir dava-dalşmalarının qabağın almaqdan ötrü hər xanımına bir ev almışdı. Əlirzanın anası, Zeynəb Məsumnijad, İdrisin ikinci xanımı idi. Əlirzanın 3 bacısı və 7 qardaşı var idi. O, öz evlərində 8 qardaşdan, 3-cü qardaş sayılırdı. Ögey anasından olan bacı-qardaşları isə 5 bacı, 5 qardaş idi.

Əlirza ilk məktəbi Ərdəbilin Panizdəhi-xurdad oxulunda bitirdi. Orta məktəbi isə o zaman Bağmeşə məhəlləsində olan Əbuzər oxulunda oxumağa başladı. Ancaq yoxsulluq, ailə çətinliyi, və onun əyilməz , yavaşımaz, qızğın, duyğusal ruhu onu təhsildən və məktəbdən dəfələrlə qaçırdıb ozaq salırdı. orta məktəbi 9-cu sinifdən artıq oxuya bilmədi. Çox zəhmətdən sonra 9-cu sinifi bitirmə bəlgəsini Ərdəbilin Qəmisi adlı əkabir mədrəsəsindən 1993-cü ildə aldı. Həmən ildə əskərlik xidmətinə yollandı və iki ildən sonra, 1995-ci ildə əskərlik paltarını soyundu.

1995-ci ildən başlayaraq Əlirza pul qazanmaq üçün hər bir işə əl atdı. Gah Təbrizdən xırım-xirda əşyaları alıb Ərdəbilə, Rəştdə, Rudsərdə və sayrı şəhərlərin xiyavanları qırağında və bazarlarında “Yüztümənlik” sərgisi sərdi; gah da Quzey Azərbaycanın tanınmış xanəndələri olan Muğamat oxucularının filmlərini öz bilgisayarı ilə CD-yə vurub Ərdəbildə, Həştpərdə və sayrı şəhərlərdə satmaqla məşqul oldu. bu yolda dəfələrcə şəhərlərin bələdiyyə məmurları onun sərgilərinə sarı yürüyüb onun satlıq əşyalarını bütünlüklə talayıb tıxdılar və ona bir çöp də qaytarmadılar! Bu çətinliklərə görə Əlirza alış-veriş işindən əl çəkib, qaynaqçılıq sənətin öyrəşib, o peşəyə məşqul olmağa başladı. O, qaynaqçılığı düz öyrənmək üçün 1996-cı ildə Kərəc şəhərinin iş-peşə öyrədən dövləti mərkəzinə üz tutub getdi

və bir qıssa zamanda misli görünməyən iradə, əmək və talaşla bu işdə uğur qazandı. az zamanda bu işin üksək vəsiqəsini dəyərli təcrübələrlə ələ gətirdi.

1996-cu ildən sonra Əlirza ömrünün sonuna dək qaynaqçılıq işiylə məşqul oldu. 1998-ci ildə Asiyə Purcəvadi adlı bir xanımla evləndi və 2000-ci ilin Yanvarında olar ilk balaları Arzuya yiyələndilər. İran Hakimiyyətinin Güney Azərbaycana qayğısızlığı və yetişməmyi ucbatından ümumən, Ərdəbil şəhərində uyğun və yararlı iş imkanı olmamaq ucbatından xüsusən, Əlirza işləyib, ailəsinə pul qazanıb, oları çətin durumdan qurtarmaq üçün, Ərdəbildən qürbət bölgələr və şəhərlərə getməyə məcbur oldu. O, Buşehr, Bəndər Abbas, Əsəluyə kimi işləyimsəl Farslar oturan Şəhərlərə və şəhərciklərinə gedib və qürbətlərdə usandırıcı və qırıcı istinin qabağında gecə-gündüz qaynaqçılıq edib, pul qazanırdı. 2003-cü ildə Əlirza atasını, böyük dayağını, itirdi və yaşayışın ən yaman üzü ilə üz-üzə qaldı. O, 2006-cı ilin Aprel ayında ikinci balası Amirrzaya yiyələndi.

16 Avqust 2006 Əlirzanın yaşayışının ən qaranlıq, acınacaqlı nöqtəsi idi. Savə və Buyinzəhra şəhərlərinin arasında olan böyük siment zavodunun tikinti işini görəndə, gecə yarısı 15 metir ucalığı olan bir yarımçılıq tikintinin başında işləyərkən, o dəhşətli hündürlükdən yerə düşdü. Onun beli ortadan iki yerdən, bir qolu dirsəkdən, bir qıçı buddan sınıb, ölüm halına düşdü. Çünki kərxana yiyəsi işçilərindən görüşlərində Əlirzanın öz işində çalışması, talaşı, ciddiliyi, iradəsi və işə can yandırmasından çox xoşu gəlirdi onun tapşırığı ilə Əlirzanı canlandırmaq və ən çətin təxəssüsi əməliyyatlar üçün Tehranın ən mücəhhəz, xüsusi olan Arad xəstəxanasına aparıb yatırtdılar. Onun böyük qardaşı, İxtiyar, o acı anlarda, Tehranın amansız, dözülməz istisində qabarlı dodaqlarla və ağlar ürəklə onun işlərinin dalısıycaq qaçırdı. O çağda, İranın ən uzman həkimləri o cümlədən beyin və sinirlər cərrahı Professor Məsud Mehrazin Əlirzanın Əməliyyatların öhdələrinə alıb, ulu Tanrının mərhəmətiylə çətinliklən onun belinin unurğa beyininin qırılmağına və çolaq olub ömür boyu çərx üstündə oturmağına mane oldular. ancaq bu acılı və ağrılı olay, onun gələcəkdə törədən üzüntüləri və ağrıları Əlirzanın yaşayışının sonuna dək ondan qopmadı. O olaydan qabaq Əlirzanın polad fənər kimi bərk bədəni, 190 sentimeter oca və yaraşıqlı boyu, armatorları əyməyə qadir olan gücü var idi, amma o qəzadan sonra artıq əldən düşmüş, bükülmüş bir insan idi ki get-gedə bədəninin gücünü və canının sağlamlğını itirirdi. O, 2008-ci ilin Fevral ayında sonuncu balası, Arıyənə yiyələndi.

Acılar və ağrılar onun çətin işləri görüb, xanımına və üç uşağına çörək qazanmağına artıq angəl olub həyatını tam dəyişib, acınacaqlı hala saldı. Çarasız Əlirza ictimaii təminat qurumunun işdəndüşmüş əməklisi olub, "ye-ölmə" bir aylıqla bir bucaqda oturmağa məcbur qaldı. Bu o halda idi ki oturduğu evi də yarımçılıq idi. Belinin o halına baxmayaraq özünün və ailəsinin boğazından kəsib o yarımçılıq evini düzətmək üçün həyatının sonuna qədər canın xətərə salıb çalışdı, tək başına xanımıylan birlikdə onu oturmalı bir evə çevirdi. Üç balası və şeirlərindən sonra, Ərdəbilin Gülmuğan məhəlləsində olan o uca iki- mərtəbə ev, Əlirzanın talaşının simgəsi olan yadigardır.

Yıxılmaq və sınmağın acı-ağrıları Əlirzanı ki sınmaz, əyilməz, azad, azadə bir ruhun yiyəsi idi, bərk incidirdi. Bu duyğulu insan ondan sonra öz acılı və ağrılı yaşayışına, alınının yazısına çətinliklə dözürdü ki 2010-cu ildə ruh-çiçəklənməyinin ilk qığılcımları onda görsəndi: şeir! Və bu çox inanılmaz idi: Əlirza ilə şeir?! Amma doğru idi. Sankı cisminin sınmağı ruhunun lələklənməsinə səbəb olmuşdu. Ruhu, təzə uçan bir cücə kimi, büdrəyə-büdrəyə qanad vururdu. Sən demə O, ömürü boyu incə, umuşaq və gözəl bir ruhu böyük, sərt, əzüləli bir cismin və yekə əllərinin qabarları altında gizlətmişdi. Nə isə çox zaman çəkmədi ki öz ailəsinə, qohumlarına, və bütün yoldaşlarına, tanışlarına qəbul etdirdi ki bir incə- ürəkli və duyğulu şairlə üz-üzədirlər. dodaqları tikdi, gülümsələri dodaqlar üstündə qurutdu və başqa çeşitə çevirdi. dilləri isə alqışa tərpətdi. Şeirlərini uca səslən çox duğu və həyəcanla oxuyurdu. Sanki ürəkdən bağırırdı.

2010-cu ildən ciddi sürətdə öz anadilində, Azərbaycan Tükrcəsində, şeir yaradıb yazmağa başladı. O yol ki onatay şairlər illərdə gedirlər aylarda getdi. bu yolda bərk tələsirdi. Sanki hiss edirdi ki ağrılı, vurğun, çılğın canınnın yanqılı nəğmələri və mahnılarınını oxumaq üçün çox möhləti yoxdur. Bu yolda addım-addım amma yeyin qabağa gedird. Obiriləri özlərinə gəlib ona yetincə, Azərbaycan Türkcəsində hər iki sünnəti və sərbəst biçimdə şeir deməkdə özəl bir stylə yiyələndi və müddəi oldu. O, öz acı-ağrılarıyla qayğılı Türk millətinin acı-ağrılarını dərindən duyub; birbirinə qatıb, şeirlərində hər ikisini əks etdirirdi. Qıssa şeirlərindən savay uzun şeirlərində də gözəgələn uğurları var idi və bu gerçəklik yeni bir şair üçün çox əcib idi. Bir şuara oxşayan vəznsiz, hicalarının sayısı düz gəlməyən, uzun şeirlən başladı və dərin, düşündürücü şeirlərlən ki Azərbaycanın post-modern

ədəbiyyatına öz etkisini qoyacaq, sona çatdırdı. Ulu Tanrının yazqısı qaçılmazdır. Amma əgər dəyişilsə idi, əgər... şayəd... .

Rəhmətlik üstad Şəhriyardan bir misra şeir vardır. O buyurur: “Şair ola bilməzsən anan doğmasa şair...”. Əlirza anadan şair doğulmamışdı. onu yaşamının dərdləri, acıları və ağrıları şair etmişdi. Onu dərd doğmuşdu. O, dərd şairi idi. Toplumunun bütün qatlarıyla özəlliklə şairlər və Türk dilinin aşıqları, Azərbaycan ədəbiyyatının vurğunlarıyla oturub durdu; danışdı; yazışdı. İran islam cümhuriyyəti hakimiyyətinin  Azərbaycanın Türklərinə sərt və qaba basqılarından qorxmayaraq Ərdəbildə millətçilərin özəl ocağı olan “Duz-çörək” yeməkxanasında, gəzintilərdə və şeir məclislərində millətçi, Türkçü, Azərbaycançı gənclərimizlə sıx ilgi qatıb; oturub durub və  olarlan ayaqlaşırdı. Olardan ilham alıb, olara ilham verirdi. Sayın Rəhim Qulamı, Əlirzanln həyatını dəyişməsi anımına yazan şeirində bu qonuya belə toxunur: “Duz-çörəkdə səni tapdıq/ Mindik Türkün atın çapdıq/ Türk bilgisin göydən qapdıq/ Bir-bir aldı torpaq bizi/ Yer çökdürdü güclü dizi”.

Əlirzanın uğurlarının sirri onun arı, kirsiz, silik ürəyində idi. Onun bir saf, sevəci, merhriban, heç bir kinə, hitgəsi olmayan  ürəyi var idi. Şəxsiyyət və mənliyinin heç bir qatı, layı yox idi. Uğurlu şairlər kimi özü idi; heçvaxt riyakarlıq, ikiüzlülük etməzdi. özünə və müxatəblərinə heçvaxt yalan satmazdı. Heçvaxt üzlük üzünə taxıb özünü onun dalında gizlətmədi. Yuxa, duyğun ürəyindən çıxan duyğular və düşüncələri qızğın nəfəsləri ilə çölə səpdi. Əldəyməmiş, cır, vəhşi, yaban, doğal idi;  Savalan ətəyində yiyəsiz bitən bir yaban bitki kimi.

Duzgünü (Bazar ertəsi) 2015-ci ilin İyun ayının birinci günü, saat 2:40 sübhdə Ərdəbil şəhərinin İmam Xümeyni xəstəxanasında duyğulu, dərindüşüncəli, millətçi şairimiz, Əlirza bəxşi, 40 yaşına çatmamış ağciyarının damar tutulması (ağciyar ambolisi/ Thrombosis embolism) və ürək çatışmazlıqı (ürək aritmisi/ Cardiac arrhythmia) xəstəliklərin nəticəsində həyatını dəyişib əbədiyyətə qovuşdu. O, ömürünün son gününə qədər ardıcıl şeir yazmaqda idi. Nə yazıq əcəl qasırğası əsdi; onun çiçəklənməyinə aman vermədi; onu açmamış yapraqladı. Bu barədə Nir şəhərinin duyğulu şairi, Ruzbeh Səmədi (Niroğlu), sızladı: “Bu gün ürəyimin parası getdi/ sağı yox, solu yox, arası getdi…” “yenə də bir ulduz düşdü torpağa/ matəmə uğradı yağsız fənarım/ yenə gürşad düşdü yaşıl bir bağa/ payıza tuş gəldi yazda çinarım”.

Əlirzadan qalan yalnız bir şeir toplamı əlinizdə olan “Acı seçimlər” adlı bir əsərdir. istəyirdi onu ölməmişdən öncə çap eləyə, amma əcəl aman vermədi. Bu şairin üçüncü gününün yas törəni iyunun 3-də Ərdəbilin İmam Hüsein məscidində keçirildi. O mərasimə Ərdəbildə yaşayan bütün şairlər və millətçi xanımlarımız və bəylərimiz qatıldılar. Peykdə olan GünAz Tv (Güney Azərbaycan Televiziyonu) Əlirzaya görə hər bi xəbəri yaymaqdan əlavə bu şairə xüsusi vaxt ayırıb 2 İyulda yayımlanan “Ocaq” verlişini Azəryar Danişvər bəyin aparıcılığı ilə bu şairə həsr etdi. İnternetdə olan Güney Azərbaycanın bütün sitələri o cümlədən sananews, güneynews, araznews, tribun, özəlliklə Azoh (Azərbaycan öyrənci hərəkəti) və GünAz Tv sitələri Əlirzaya görə yazı və bildiriləri payladılar. Nümunə olaraq GünAz Tv-nin sitəsinin 12 İyun 2015 də yayan bu xəbər başlığına işarə etmək olar: “Ərdəbildə Azərbaycanlı millətçi şair dünyasını dəyişib”. Qardaşı İxtiyar onun qırx gününün yas törəni bildirisində və qəbirdaşının üstünə “Can Azərbaycan” şeirini yazdırıb qazdırdı: “Anama söylədim can/ Bacıma söylədim can/ Balama söylədim can/ Sevgilimə söylədim can/ Bəlkə də sən candan yarandın/ Azərbaycan”! məhz bu yazıya görə İranın təhlükəsizlik organı olan İttilaat baxanlığının gizlin işçiləri İyulun 9-da onun qırxıncı gününün yas törəninə qatıldılar. Olar Əlirzanın qəbirindən şəkil çəkənləri izləyib və millətçi yoldaşların onun qəbirinin üstə Türkcə milli şeir oxumaqlarına mane oldular. Ondan qabaq Ərdəbil şəhərinin məscidləri, xiyavanları və küçələrinə yapışdırılan Əlirzanın yas bildirilərini, Türkü dilində yazılmaq və “Can Azərbaycan” şeirinə görə, tələm-tələsik, amansız qoprartdılar! O mərasimdən sonra Əlirzanın böyük qardaşlarına hədə-qorxu gəldilər və bildirini Türkcə yazmaqları və onda Azərbaycanın qutsal adını çəkməkləri üçün sərt qınadılar. Ancaq bunların hamısına baxmayaraq Əlirzanın qırxıncı gününün yas törəninə Güney Azərbaycanın bütün şairlərindən, Təbrizdən, Ərdəbildən, Xiyavdan, Muğandan, Səreyindən, Nirdən, Nəmindən, Ənzəlidən və sayrı şəhərlərdən gələn, adlı-sanlı şəxsiyyətlərimiz və millətçi igidlərimiz və şairlərimiz qatıldılar və zəngin, görkəmli bir yiğıncaq yaratdılar.

Bu millətçi şairə görə İyunun 9-da günortadan sonra Ərdəbilin Sərçeşmə məhəlləsinin Şəms küçəsində olan Hövze-yi hünəri evində xüsusi bir şeir oxuma törəni Şair dostları xanım Əfsun Behnijad, Doktor Şəhriyar Neməti, Əmir Rəcəbi və qardaşı Doktor İxtiyar Bəxşinin köməkliyi ilə tutuldu. O mərasimdə öncə Əlirzanin qardaşı, İxtiyar, çıxış etdi və Əlirzanın yaxşılıqlarından yad etdi və

ondan bir neçə şeir oxudu. Ondan sonra Ərdəbildən, səreyindən, Nirdən, Nəmindən, Ənzəlidən olan millətçi, Türkçü və Azərbaycanı sevən şairlər, Rəhim Qulami və Haşim Fəal Ərdəbildən, Rəhim Əsədullahi (Qartal) Səreyindən, Ruzbeh Səmədi (Niroğlu) Nirdən, Məhəmməd Nuri Nəmindən, Behbud Muradi (Elçi) Ənzəlidən və sayrılar şeirlərini oxudular və bu şairi tanıtdırdılar.

Özü demişkən şeir yazıb yaradmaq yolunda böyük öyrətməni sayın Rəhim bəy Qulamı olumuşdu. Onun Əlirzaya görə yazdığı şeirdən neçə bölüm burda gətiririk:

“ Əlimizdən yar da getdi/ Qəm sızlayan tar da getdi/ Yox da getdi var da getdi /Biz donuxduq çağda yaman / Ürək qaldı dağda yaman / Qaldıq ürək yarasında /Xançobanın Sarasında/ Ağ itirən qarasında / Torpaq sənə ana oldu / Ana-bacın saçın yoldu / Suya dedim su da yandı / Dünya dərdə can qoyandı / Qəm havanı qəm sayandı / Getdi əldən şanımız da/ kədərləndi canımız da/ Duz-çörəkdə səni tapdıq/ Mindik Türkün atın çapdıq/ Türk bilgisin göydən qapdıq/ Bir-bir aldı torpaq bizi/ Yer çökdürdü güclü dizi/ Torpaq bizə ana oldu / Ana- bacın saçın yoldu / Qəm-kədərdən gözüm doldu/ Torpaq sənin anandı dost/ Torpaq səni qanandı dost/ Davamlıdır yolun sənin/ Sağın sənin solun sənin/ Güclü beynin qolun sənin/ Bu yolda sən çəkdin zəhmət/ Tanrı sənə etsin rəhmət”.

Ulu tanrı Əlirzanın ruhun şən eləsin. Azərbaycan millətinin başı saq olsun.

Sayqılarla 2015-07-11

# Sərbəst şeirlər

**Ai Əli gəl bəri!**

Atam məni səvib çağırır:
"Ai Əli gəl bəri"!
Mən Cümə axşamların çox istəyirəm
Axı
Olar mənə
Sərpil-sərpil Cüməni
Yorulmadan ətəyində daşıyırlar
amma
Nədənsə Cümə
Yadıma gələndən
Məni əmzigi ağızından çəkilən umsuq körpə tək
Buraxıb
Qoşulub qaçır Şənbələr gilə
Axşamı ilə istəyirəm ayaqlaşam
Amma oda
Məni görcəyin
Bir utanqac uşaq sayağı
Gizlənəcək

Anacı gecənin ulduzlu çadrasının altında

Hələ

Atası ay da

Dişlənibdir

Bəlkə də şəkər-çörək dadı verir

***

Mən

Anamın çarşabının bucağın

Gecənin çadrasından çox sevirəm

Axı o,

Bükülmüş kağız-pulların yatağı deyil

“Nə istəyirsən”?

“İki Tümənlik təzə qovrulmuş kasıb-noğulu”

“Bəs pulumun qalanı hanı”?!

“Niyə baqqal Seyid Ağa

Pulumun qalanına

Həmişə boyat qorəbiyyə verir”?

***

Yatmalıyam

Yatmalıyam

Sabah sübh alatordan

Yollanacağam çörəkxanaya

Orada

“Çörəkçinin gəlini

Nədən qoyuq udubdur”?

Anam deyir:

Qızı Xədicəyə qardaş gətirmək istəyir”

***

Biz

Bu sorğularlan boya-başa çatırıq

Amma

Tapmacalar

Həmişə

Məcbur deyirlər cavablanmağa

***

Bir ölünün gözünə bax

O, hələ də axtarır

O, hələ də axtarır

2015/04/02

- səvmək: uşağın boyunu oxşamaq və onu məhəbbət ilə dindirmək, alqışlamaq, öymək, sitayiş etmək.

- sərpil-sərpil: səpələnmiş, dağınıq, seyrək, yayınıq, Şairin özəl sözcüklərindəndir.

## Yeddigöz körpü

Yaradanlar onudulublar

Və paltarlar

Əyinləri bəyənmirlər

Məni mənimsəyənlər

Özümü mənə qaytarmaq üçün

Məndən muştuluq istəyirlər

***

Calanıram günçıxana

Artıq vaxtı gəlib çatıb

***

Bu sırada dayanan

Məndən sonuncunu soruşanlar

Saysız-hesabsız olublar

Neçəminciyəm?

Bilmirəm

Ancaq

Bunu bilirəm ki

Nəfəslərimin sayısı

Məndən qabaqda gedirlər

Və

İzsiz-tozsuz getmələr

Məndən sonra gələcəklər

***

Buraxın qınlanım

Mən o körpülərin gözlərin

Uşaq olarkən saymışam

Nə artiq

Nə əskik

Düz qırx gözü var

Yeddisi mənim payıma düşüb

Otuzüçün də babam sənə verib

O,

Ömür boyu səni məndən çox istədi

Və indi

Sən

Oğurladığına

Məndən muştuluq istəyirsən!

2015/03/20

-yeddigöz körpü: Ərdəbil şəhərində olan bir tarixi və adlım körpünün adıdır. Otuzüç körpü ya Otuzüç göz körpü də İsfəhan şəhərində olan bir tarixi və adlı-sanlı körpünün adıdır ki Şah Abbas Səfəvinin buyuruğu ilə onu düzəldiblər. Bu şeirdə "babam"dan mənzur Şah Abbas Səfəvidir.

**Yazıçı olmaq**

Yazıçı olmaq istəyirsən?

Düşünmə

Daşın!

Heç bir qələm ya kağız olmayacaq

Və

Dinmə

Ancaq

Sözünü de

2015/03/18

**Tək ağac**

Silkələmə ağacı nə olar

Qızıl almaların səndən qabaq çırpışdırıblar

Nə veribsən ala bilmirsən ondan?

Ya ona nə olub

Ondan savay ki adı ağacdır?

Hələ də

Başına gəldiyi

Düşündüyünə güləcək

Və

Titrədiblər onu

Ondan alçaq dostluqlar

***

Küləklər

Gediblər duman dalıycaq

Və uşaq

Arzıların əkəndən

Zumar daşıyır ətcələrinə

Tərlən yuduğu dəstmalın arasında

***

Boşla onu

O, tək qalmaq istəyir

Yalqızlığıylan

Axı

O, söz verib yaşıllığa

Pulsuz kölgə sərə

Ucuz yoldaşlıqlara

2015/02/04

**Astagəl tamahlar**

Astagəl tamahlarım dən səpirlər

Bəxtəvər döyəclər taptağına aldanam

Və qulağıma

Pıçıldaşırlar:

“Gözünü yum ovcunu aç”!

***

Düşüncələrimi

Bir kürk toyuq sayağı
Dimdiyimlən çəkirəm altıma
İnanıram
Olar da
Çartladacaqlar
Yumurtalarını içəridən
Və bir gün
Cınaq sümüyüm ayrılmalıdır
Axı
Cırtlanlar
Çox istəyirlər
Mərcləşib çəkişələr

***

Bezdirib məni bu qanadsızlıq
Qadağaları qanadlayan
Yetkin bir  köçər quş olmaq istəyirəm
Burada
Uçmaq
Qadağandır
Sərhəddi aşmaq
Qadağandır
Sən

Qadağansan

Ondan ötrü ki

Qanad

Qadağandır

2015/02/01

**Məndən yaxşı olmaq**

Məndən yaxşı olmaq

Elə də çətin deyil dostum

Əl-qolum kölələnəndən

Özümü ötüb keçmişəm

Sənə daha

İrciş şəkillərdən deməyəcəyəm

Olar çəkiliblər

Cavan qalmaq üçün

Mən

Çirkab anlardan deyirəm

Orada

Yenə pişiklər

Əl-üzlərini yuvacaqlar

Tüpürcəklərlən

Quduz itlər də

Sülənirlər

Lüt həvəslər kürsəyində

Və almalar

Almalar

Bölünməmiş

İnanmazlar

Çürüyüblər içəridən

***

Mən

Hələ də

O qapılardan deyirəm ki

Dabanlıq gəzişməsində

Axtarırlar

Sətəlcəm çərçivələri

Dallanmış qıçlardan

Və bir qız

Yalnız o qız

Ucqar kəndlərin birində

Kobarlıq qonaqlığında

Pəncərələrin yağışlan yuyulan düşərgəsində

Dibləkləri qaşıyacaq

yorulmadan

Diblikləri qaşıyacaq

Qar yağdırmağa görə

***

Hə dostum!

Məndən yaxşı olmaq

Heç də çətin deyil

2015/02/02

- İrciş: şit, duzsuz, ədabaz, yüngül əxlaqlı, şırtı, dadsız, İrcişmək: şitlənmək, ceysinmək, səyrişmək (Ərdəbil mahalının özəl sözcüklərindəndirlər).

**Firni**

Boylu göz qapaqlarımın altında

Tükənməz görüntülərim gəzirlər

Oları

Birbir çağırıram

Başlarının bitinə baxam

Sirkələrin də

Ütməliyəm

Kürsü ilə boğduğum

Ağ gödəkçəli təndirimin

Hənirtisiylə

***

Şalmoz donlu yorğanın altında

Başlayıram batmağa

Batıram yuvarlanmağa

Orada

Qocaman meşələrin dərinliyində

Baltalar hökm sürürlər

Və zəhərli göbələklər

Məxməldən geyinsələr də

Ancaq palıdların

Doğranmış kömürlü kötükləri üstündə

Bitəcəklər

***

Qarabasmalar tayfası

Döşümün üstündə çay-çörək sufrası açıblar

Dəbərə bilmirəm

Dəbərə bilmirəm

***

Ancaq

Bu quxu

Mənə çox tanışdır

Dayan!

Bu anamın pişirdiyi

Qaymaqlı firninin qoxusu deyil mi?

Bu qoxu

Yalnız “Rəbbəna” səsin xatırladır mənə

“Bala yatmısan”?!

Bəs sənə deməmişdim

İftardan qabaq yatmaq olmaz”?

2015/01/31

**Fırlanmaq**

Mən çoxdandır qurtarmışam oğlum

Amma sən istəsən

Başlaya bilərsən məndən

İndi mənə gördüklərim

ən böyük qənim olublar

***

Sancılmışam

Bir paslı iynə tək

Qırxıntı yastıqa

Doğurdan nə baş verir?

***

Söz vermişəm otaydakılara

Durduğum yerdən

Yenə başlayam fırlanmağa

Yırqalayacaq məni

Özümdən qoca duyğularım

O pinti deşik kasasında

Və ancaq

Manə xatırladacaq

Tovdan düşdügüm anı

Mənə demədən

Məni də çəkəcək əyininə

***

Və bu sondur:

Mənim sonum

Sənin sonun

Fırlanmağın sonu

2015/01/02

**Balıq, qaşiq, narkaman**

Maraqlıdır

“görəsən balıqlar yuxu görürlər”?

Gök damarlardan

Küskün əlimdə təkcə bir qaşıq qalıb

Heç inanmazdım o

yalnız sonuncu dilənci olacaq

O zəngin yuxuya
Onlan doyuzdurmuşam aclığımı
Qaynatmışam qanımda üzən əfunu

***

Və indi
Qazmalıyam özümə
Qaranlıqdan
Bir sərin
Əbədi yatacaq

***

Amma
O vaxtacaq ki su var
Deməli
Balıqlara fərq eləməz
Qaranlıq
Yoxsa
Göz qamaşdıran
Sırtıq işıqlar
Olar,
Dayanmadan özəcəklər
Dayanmadan
Özəcəklər

2015/01/28

**Yamsılama sevgini**

Sən heç şəlalənin dumanlanan çağı

Çalışmısan öpəsən onu?

Düzün de

Öpübsən mi?

Ya öpub damcıların intiharı səni?

***

Damcılar

Yollanmadan

Məhkumdurlar

Sön öpüşə

***

De

Haçan ilmələnibsən boyluğa

Adaqlı qızların titrəyən

Qanlı barmaqlarıylan boyana-boyana?

Vurnuxubsan taptalanmağa

Ləzgicə oynayanların

Ovunmaz dizlərinin altında?

***

İlmələr

Dəfələnəndən

Göbəkkəsdidirlər

Taptalanmağa

***

Sən ki yadırqadın son öpüşü

Səngiməyən tapdağı

Yamsılama sevgini

Yamsılama sevgini

2014/12/31

**Ad günün mübarək**

Mən dayandığım yerdə

Günəş doğulmamış boğulur

Artıq yollanıram sənə sarı

Lal sükutlarımlan hamaşlanıram ki

Öcəşən çatışmaları qovalayam

***

Amma

Yadıma gələndən

Dön-qayıd nişanları unutmuşam

Odur ki

Suçlanıram

Öz başımda gəzişməyə

***

Bütün yaşayışımın anlamı

Bir iki üzü şəkilli qara pul kimi

Çapağanların ayaqqabılarının altındadır

Olar,

Qaranlığa and içiblər

Addımlamayalar günəşə sarı

***

Bilirsən ən qorxduğum an haçan olub?

Sənin ışıqdan qorxub mənim qabarlı əlimdən

Kölgə borc alıb göz açmağın gecəsi

***

Və indi

Boğuluram yetişməyə

Ona görə

İnanıram sən mənə

Anlamı  oksigen tək içirdən

Yalnız balaca tib bacısısan

Bağışla gecikdiyimə görə

Ad gönün mübarək bala!

Ad gönün

Mübarək!

2014/12/22

- çapağan: böcək, ev böcəyi, Xıyav deyimində.

**Gecə çapağanları**

Sigaretlərim

Köz öpüşündən doymayırlar

Xoruz banından köpək hürüşünə qədər

Porsuqlar

Ölülərin nişan barmaqlarından

Başlayırlar yeməyə

Niyə ki

Göstərməyələr

Çürümüş rəfidən asılan

Çəlimsiz ıldırım şəkilin

***

Olar,

Çoxdandır bir ağ qarğanın

Boğaz ətinə yerigləyirlər

Ki deyələr

Qarğaların hamısı qaradırlar!

***

Gecələr

Himləşirlər yarasalar

Qan gəmimək əyləncəsində

Və sən

Yuxu adlanan komada

Yuxu görməyə

İsti qan ödəməlisən

***

Amma

Səndən uzaq

Tanış yaxınlıqda

Palçıq duvarların

Çatlamış göbəyinə

Söykənən yeniyetmələr

Barmaqların qatlayarkən

Sayırlar:

“Bir iki bizimki…”!

2014/12/05

**Başlasın yaşayış**

Dəmirliyini ərid

Taxta olsan da

İçindən başlayarsan çürüməyə

***

Gəl su ol

Süd kimi

Başlasın yaşayış

Bir südəmərin

Anasının gözünə dovuxub

Barmağın sıxmağından

***

Unutma ki damcılar

Təkcə sənə görə qovrulublar

Tozlu cığırlarda

***

Ax!

Dayanma!

İnan dərələr yaradacaqsan

Əmgəyi bərkiməmiş beyinlərdə

Qoy olar

Özləri adlandırsınlar

Eniş-yoqquşlarını

***

Bir bax!

Qarşında əbədiyyət dənizi

Yenə qucağın açıbdır

Yerlən öpüşən yerdə

2014/11/14

**Şablon**

Şablon olmaqdan bezmisən?

Önəmli deyil

Köynəyinə şirin dağılıbdır

Ya turşu

Hər bir an

Hər bir şeyi başqa yerə yönəldirsən sə

Deməli

Şans yaradırsan

***

Duyğuların haçalanmamış yola düş

yaxınlıqda

Qarışqalar

Çoxdandır yuvalarını qurublar

Burax əldəgöz hönkürtülərini

Tələs!

Səni yorğunluğun yorulan dayanacağında

Gözləyirəm

2014/11/01

**Dul arvad**

Bu nəmli ocağın tüstüsü

Yenə çimizdirəcək gözlərimi

***

Taxtadan oğluma bir oyuncaq kürək yonuram

Bəlkədə

Gələcəkdə

Kürüyə həsrət dolusu tamarzılarını

***

Qızım da

Didilmiş bir külə süpürgəni gəlincək oynadır

Kərpicləri çürüyən bucaqda

O,

Həmişə

Arzılarının ən gözəllərini

Geydirir gəlincəyinin əyininə

***

Bu boş bardaqda

Nədənsə

Artıq  yuxu borc vermir

Oların gözləyən gözlərinə

2014/08/03

**Acı seçimlər**

O zaman ki arıdılırsan kromozomundan

Deməli seçilirsən çıxışa

Və seçım

Sənin haqqındır

***

Ənginliyində dəngəciliyin küpsünür

Bəyəndiyinlər

Çeynəyəcəklər boyluğunu

***

Qıpçanma!

Onsuz da olar

Dadın ağızından gedənədək

Gövşənəcəklər

Tüpürəcəklər yelkənliyini

Löhmə burulğanların gözünə

***

Hə!

Körpə!

Başla!

De görüm:

Sən atanı çox istəyirsən

Yoxsa ananı?

2014/02/04

-Ənginliyində dəngəciliyin küpsünür: dərinliyində və genişliyində yağı və harın düşüncələrin səni dinc buraxmayırlar.

- qıpçanmaq (qıpçınmaq): özündən çıxıb özünü çox ora-bura vurmaq və hər sözü danışmaq, özündən çıxıb gözlərini qırparaq və qaşlarını dartaraq qaş-gözlən danışmaq, dinc oturmamaq, oynaq və çılğın və qərarsız olmaq. Bu bir yerli sözcükdür: Ərdəbilin batısında Savalan ətəyindəki bəzi kənlərdə işlənən sözcüklərdəndir.

-löhmə: burda çamurlu, lilli, zığlı, palçıqlı anlamındadır.

## Intihara açılan yol

Sabahım təkrardan doğulur

Sürgün saniyələrimi

Bir paxır basmış güzgü ilə

Bölüşürəm

Orada

Keçən günlərim

Gələcəyimi gəmirir

***

Bir zaman

Büsbütün varlığımla

Yaşayışı sevirdim

İndi sə

Var bağırtımla

Onu söyürəm

***

Kotan, dəmir, bilgisayar

Bizi

Sındırır; əzir; əridir

Doğurdan da

Yaşasın ölüm!

2013/12/04

**Yeni Feministlər**

Mirvarilərə bürünən gözlərini

Suya çək ver mənə!

Çox istəyirəm sevgilimə

Bir boyunbağı pay verəm

***

Mənə nə!

İstəyirdin mürgü döyüb ilmə salmayasan

Bilmirsən?

Axı

Biz indikilər

Hər zadı qadınlara görə edirik

Ana can!

2013/09/06

**Vaxt var**

Dayan!

Dəstəyi asmağa vaxt var

Qulaq vermə qısqanan pıçıltılara

Nə yaman tələsirsən yetişməyə?

***

Çevik qasırğalar

Buraxdığın yorğan-döşəyi

Hər an salır yığışdırır

Və

Anan axşam yalvarır:

“yuxu əmirsən sə

Dur gir yerinə”

***

Haçan sa

Qayıdacaqsan

Buz öpüşlü buludlarlan

Amma

Bunu bil ki

Bir dırnaq izi qalıb

Ananın təzə əmilən əmcəyində

***

Dəstəyi asmağa vaxt var

Dəstəyi asmağa

Hələ də

Vaxt var

2013/08/07

**Yaşayış sürgünləri**

Bir mən idim

Bir də köksü illər boyu yerə dirənən

Tut ağacı

Bir də sən

***

Biz

Sürgün idik

Qovalaşan anlara

Suçumuz:

Damcılarlan yarışan nəfəslər

***

Səni doğmadan atmışdılar

Qara incilərə şıltaqlıq edən gözlərini açarkən

Sancıldın

Acı yapraqların yaşıl köynəyinə

Dayanmadan

Yeyirdin acılıqları

Mən isə

Seçirdim

Onların qucağındakı

Səmiriyən

Şip-şirin tutları

***

Unutmaram

Havalandığın sabahı

Qanadların bürədikcə

Təzə adaqlanan al yayaqlı qızın

Yaylığına bənzəmiş idi

Yüngüllüyünü tapşırdın

Ayazın həzin əsən

Sərin sızqılarına

***

Sənlən qalan

Əyinləri bəzəyən

Bahalı ipəklər oldu

Göz oxşayan ilmələr

Nələr

Nələr…

***

İndi

Mən qalmışam

Mənlən tollanan

Quyu dolusu

Zibillərlən

Və təkcə bir sorğu:

“Əcəba!

İnanmazdım

Bir xırdaca əvəlisdən

Yaramaz olam”

***

Yaxınlarda eşitdim

Çiçəklənməyə yalnız bir yol qalıbdır

Quylanıram ağacın dibinə

Qoy bizim aramızda olub-keçənə

Yalnız o qəzavət etsin

Axı deyirlər

O hələdə yedizdirir

Acgöz yaşayış sürgünlərin!

2013/06/08

- əvəlis: barama qurdu, ipək qurdu,lisə. Ərdəbilin batısında Savalan ətəyində, Sərdava yolunda kəndlərin deyimində olan sözcükdür.

**Acgöz**

Hər nəyi çəkir döşünə udur yalmanır

Səninləyəm

Düşüncəyə qənim kəsilən yad pıçıltı

Bir damcı murdar həvəsdən

Sıçrayan pintilik

Bir ömür zibil daşıyıcı olduğuna şişmə

***

Tələs!

Səni ac yer adaqlayıbdır

Gəlinliyini

Qaladığın ağ yalanlarla geyin

Ancaq

Səni çimizdirəcək

Qaranlığın qara qarısı

***

Məni hələ gözləmə

İstəyirəm tozlanam

Günəbaxanlara

Qoy bu acgöz

Hələ də qoxumu tamsınsın

Tükürpədici sözlərdən

Təntiyən beyinlərdən

2012/12/31

**Sayğaclar sayırlar**

Sayğaclar sayırlar

Siyanur kəpsulları

Dilimin altında xarlanıblar

***

Mənə indi

Yaşayış incəlikləri

Həddən artıq şişirdilmiş

Bir ölünün gövdəsinə bənzəyir

***

Tüpürüm bu yaşayışa

Yoxsa udqunum qorxularımı?!

Onsuz da

Umud hər zaddan sonra öləcək

Axı

Sayğaclar sayırlar!

2012/12/01

**Dilim yaradır**

Gecəmin dibində qalan keyliyimi

Tamsınıram qərib sabahıma

***

Burada

Tamarzı qalmış ac amaclarım

Çimçəşirlər

Yalançı kuklalardan

***

Dırnaqlarım qasnaq bağlamış

Bir qoca xaçatanın

Gövdəsin qopardarkən

Çəkiliblər

***

Beyinimə qənim kəsilən duyğular

Onurğa sümüyümün iliyin

İçirlər

Içqırırlar üzümə

***

Görə bildiyim

Bu kino qarşısında

Saniyələr

Qurquşum damcıları umurlar

Göz bəbəyimə

Dilim yaradır ana!

2012/09/24

**Çayda üzən ay**

Kürəyim çapıq-çapıq olsa da

Ayaqqabılarımı tay-dəyişik geyib yollanıram

Ki aldanmayam

Yalançı yelqovanlara

***

Qılçıqlar

Corablarıma yapışmaq üstə yarışırlar

Çoxdandır

Quylayıram sözcükləri

Bəlkə bir gün

Sabah közərtisində

Cıl atam

Palçıq beyinlərdə

***

Gözlərimlən gözlüklərim

Dalaşırlar oturacaq üstə

Bu hay-hayda

Məni yaşadan

Bir gecə dolusu xəlvətimdir

Bir stəkan çay

Çayda üzən ay!

2012/09/03

- cıl ( xiyav deyimində): kötük, kök.

**Soyuducuya yapışan yazı**

Sabahın xeyir!

Aclığın var sa

Bir çimdik yalqızlığı

Bir tikə bayat xatirələr fətirinə

Yaxmaca eləyib yeyərsən

Gündəki kimin yavanlıq elə didərginliyimizi

Qoy mənə də qalsın

Axı uşaqlar oynayarkən

Bölüşüblər məndən qalan qürbəti:

“Əl-ələ

Kərtənkələ!

Babam gedib başmaq ala

Bir tayı sənin

Bir tayı mənim…”

2012/07/27

**Yalqız**

Cılızlıq beşiyində

Sısqa duyğularım mürgüləyirlər

***

Adsızlıq yorğanın

Çəkin başıma

Tir-tir titrəyirəm

***

Nə olar?

Qoyun mən də arsızlıq yuxusun tamsınım

Qara qancıqların əmcəyindən

***

Mənə nə gərək dir paltar?

Onsuz da

Məni dəridən soyundurublar

***

Çimizdirin məni

Qardaşlarımın qaynar qanıylan!

Mənə nə gərkdir qardaş?

Onsuz da məni

Yalqız deyib oxşayacaq

Torpağımda

Bacım

2012/12/29

**Susmaqlar**

Qarışıq boşqabımın dibində

Bir neçə ağızı yumuq püstə qalıbdır

Olar ki ağız açmışdırlar

Yeyiliblər

Susan püstələr də

Sınacaqlar

Xatırlayıram həkim demişdi:

“Susmaqlar hərdən diş sındırıcıdırlar”

2012/03/25

**Dağçı**

Yüksək zirvələrin boranlı üzərində

Boşluğa söykənmişəm

***

Küləklər üfürürlər

Donduralar üzümü

Mən isə

Hovxururam ovucuma

***

Çürüyən diz qapağlarımın havası

Çıxdığım yoqquşların səmfoniyasın

Not ba not ifa edirlər

***

Qarşımda

Sərt enişlər

Mənə hədə biçirlər

Görəsən qurtuluş nə dir?

2011/09/27

**Qızcığaz**

Tıxaclar

Amaclarımın başlanqıcıdırlar

Mən

Qırmızı işıqların altında

Kəmsiklənirəm öz haqqımı

Cansız maşınların

Dumanlı açışqalarından

***

Kiçik əllərimdə

Şaxtanın qəddarcasına gəmirdiyi

Çiçəklər və fallar

Tələsirlər gəlin gedələr

***

Ertədən

Anam çürək tapşırıbdır

Balaca bacım

Telmili

***

Ey vay!

Yenə də oğru axşam

Marağa yatıb

Çantamın dibində qalan

Umudumun başın üzə

İndi necə gedim evə?

2011/09/03

**Üzlüklər**

Çılpaqlığımıza

Təzaddan paltar geyinmişik

Ağdan əlcək

Qaradan gözlük

***

Pisliklər də

Yaxşıca aktorlanırlar

Qarşımızda

***

Bilmirəm haçan

Güzgülər

Günaydın deyəcəklər

Özlüyümüzə

2011/06/05

**Sevgi (bir sonsuz şeir- ƏliRzanın son şeiri)**

Mən

Sənə yoluxandan

Yoxlanır

Göyərən dodaqlarımız

Və

Yumuşalan ürəylərimiz

***

Xəstəliyimiz

Sənsizliyi

Sizliyə

Çevirmə idi

Ancaq

Sevgi…

2015/05/31

# Sünnəti şeirlər

**Sürgün**

Gözümə zülmətdən süngü əkilib
Əlimi sürtürəm soyuq bucağa
Sümüyüm sökülüb saray tikilib
Sığındım üşüyən sönən ocağa

***

Paxırlı pisliklər məndə darıxır
Baş daşa oxşama deyilən diləm
Vulqanlar püskürər sözümdən axar
Paylanıb yad elə yeyilən eləm

***

Qovulub düşmüşəm yala-yamaca
İlmələr göz tikib yara barmağa
Dustaqda tapmıram xırdaca baca
Suçlanıb caynağım qaya yarmağa

***

İstirəm adımı Savalan qoyam
Ley təkin sıçrayam zirvədə qalam
Kaftarın bir tutam dərisin soyam

Zülmətli tapdağa əyilməz olam

2011/12/23

**Gözəl axtarma məni**

Güzəranım qaradır, gözəl axtarma məni

Gəzdiyin yer haradır? gözəl axtarma məni

Mən ərənlər elinin biçilən al diliyəm

Yaslı ölkəm paradır, gözəl axtarma məni

Savalan tək bu döşüm dərd oduyla qalanıb

Qan çanaqlar yaradır, gözəl axtarma məni

Mənim ünvanimi gəz Arpa çayından xəbər al

Xançobansız Saradır, gözəl axtarma məni

Bu elin torpağına min belə canım qurban

Qürbətimə çaradır, gözəl axtarma məni

Çəkdilər bəndə məni qoyma haraylar sussun

Gümanım tək daradır, gözəl axtarma məni

2011/05/24

**Günlər**

Tutubsan toy sevinc ilə yatıb yaslandığım günlər

Düşə idim sıldırım daşdan sənə raslandığım günlər

Məni bir uyxu tək yatdın nədən böylə ucuz satdın?

Asa idim sevgimi dardan sənə aslandığım günlər

O kəskin sərt baxışlarla gəlib son sirdaşım oldun

Boğubdur bağrımı sənsiz sınıb sazlandığım günlər

Xatırla yağmur altında sənə bir xol çiçək verdim

Saya gəlməz sənə çətr olduğum islandığım günlər

Səni bir al tumurcuq tək yaşıl ormanda istərdim

Küçə idim son köçər quşlan sənə qısqandığım günlər

2011/04/28

**Qanma amandır**

*"Dil vermə qəmi-eşqə ki eşq afəti-candır"*

*Molla Məhəmməd Füzuli*

*"Təhsili-ülum etmə ki elm afti-candır"*

*Mizə ƏliƏkbər Sabir*

Qanmazlığa öyrən a balam qanma amandır

Bilməz hejamandır

Bu ölkədə aydındüşünən beyini samandır

Düz qəddi kamandır

Al yüklə bu xəlqin zumarın ehtikar eylə

Həp ibtikar eylə

Əşşi həmişə düz deyən əhvalı yamandır

Məqruzi-zamandır

Yüksəld özünü ta olasan əhli-riyadan

Əl çəkmə ribadan

Cənnət sənə bu dünyadı uqba da gümandır

Beynin də dumandır

Donquz kimi get dayimi məclisdə cülus et

Büz ağızı məlus et

Millət sənə sayil kimi uydurma umandır

Boş sözlə cumandır

Artır əyalı siğələri al yenə zovcə

Qaldır adı ovcə

Son anda bu doymaz gözünü gordu yumandır

Torpağ da tumandır!

Sabir qocamandır

Bəxşi zilamandır!

Novdan da damandır!

2011/03/22

- əşşi: ə kişi!, ay kişi!

**Darıxmışam**

Dustağımda havam çatmır ver sazımı darıxmışam

Şərəf satıb qazanmıram ver azımı darıxmışam

İstəmirəm aslan olam pişik kimi miyoldayam

Ovbaşıyam şir tutanam ver tazımı darıxmışam

Nə vaxtacaq qışla qalım isti yaya yanqı olum?

Qaranquşam yaz istirəm ver yazımı darıxmışam

Ana südün dadmamışam günü əlində qalmışam

Yasaqlanıb anam dili ver nazımı darıxmışam

Qəzəllərimdə sözlərim vətən yolu söz əzbərim

İstəmisən dinləyəsən? ver yazımı darıxmışam!

2011/11/04

**Axtarıram**

Əynim olub çürüm-çürüm yamaq yamar axtarıram

Seçilmədi əyri düzüm könlü hamar axtarıram

Həyat boyu büdrəmişəm kimliyimi itirmişəm

Aşıq səpib uduzmuşam indi qumar axtarıram

“Laylay balam” yadımdadır südün dadı dilimdədir

El qayğısı qanımdadır qansız damar axtarıram

Bizi kəsir şaxta-boran tapammıram arxaduran

Qapazlanır başım hər an nazlı tumar axtarıram

Kəmsiklənir sağlarımız acı soğan çağlarımız

Yağmur umur ormanımız damcı damar axtarıram

2011/03/13

**Acı çağlarımız**

Susma şair bu acı çağlarımızdan de mənə

Zil kömür tək qaralan ağlarımızdan de mənə

Bu riya pillələri qan yaşımızla yuyulur

Alnımızda göyərən dağlarımızdan de mənə

Somururlar qanımı buzlu canımdan zəlilər

Ölülərdən ucalan sağlarımızdan de mənə

Orağımla biçirəm ot, dara kəndir eşirəm

Əməyi talan olan bağlarımızdan de mənə

Bir ömür özgəni güldürməyə güldüm özümə

Eli əyləncə edən lağlarımızdan de mənə

2011/01/25

**Gün qara dəftər qara**

Küsmə ay gülüzlü yarım qıl vəfa miskin yara

Gül gözəllikdan yaransa yalvarar çirkin xara

Ayrılıq küncə bükübdür dən ələnmiş saçlara

Tapmadım mərhəm yarandan gəl elə dərman yara

Bağladım əhdi könüldən qoymadım bütlan ola

Cismimi sərbəst buraxdın ruhumu çəkdin dara

Mahnılar çoxlu eşitdim sevgidən yalqız qala

Tarımı sazım doğubsa bağlıdır mahnım tara

Ağrılara dözmüş idim çatmadım amallara

Əqlimi başdan apardın çatdı səbrim zinhara

İndi varlıqda yoxumdur təb'i-nalandan savay

Sirvətimdir yazdığımlar gün qara dəftər qara

2010/09/27

**Qarışqa**

Keçdi bahari-ömrümüz qarışqa dən yığan kimi

Topladıq əyridən düzə sirvəti kor siçan kimi

İgidliyə göz yumuruq çıxar hünər sayılmayır

Pul oldu indi ölçümüz çəkilməyə qapan kimi

Eşitmirik haq sözünü kasıb sayıl biçarədən

Qulaq açıb şəhləyirik ərbaba, anqıran kimi

Hamımızın arzısıdır ərbab olaq varlı qalaq

Unutmuşuq var çapılar əcəl canı çapan kimi

Topladığı sirvətə kim satın alır o dünyanı?

Ya ki odu toplamışıq alovlanır yanan kimi

Yaşayışı sərf elədik indi daha qocalmışıq

Ömür hədər eyləmişik gəlməyəcək qaçan kimi

2010/09/05

**Nədir?**

Rəhm elə məhvəş mənə idraki-əsrarın nədir?

Anlamam qalsın sənə ol zülfi-tərrarın nədir?

Görmədim arif olan kəslərdə bir dəm ixtiyar

Mey nədir? badə nədir? ol cismi-təbdarın nədir?

Yalqızam yalqızlıq olmuşdur mənim tək sirdaşım

Azmıdır dustaq sənə? bəs böylə əhrarın nədir?

Istədin sevdin apardın vurğun etdın könlümü

Ey sənəm, meylin nədir? bu nazlı ətvarın nədir?

Müstəme’ oldum sənə əfsun olub baş tapmadım

Aç sözü anlat bilim natiq de güftarın nədir?

Biriya yandım həmişə sidqilə sevdim səni

Bivəfa sevgin nədir? rindanə rəftarın nədir?

2010/08/28

**Qəzəl**

Qədəhim boşdu mey ilə, saqi gəl badə dolandır

Vucudum xoşdu qəm ilə, getmə hicrin can alandır

Mənə Məcnun olar heyran, harda var süfiyə saman?

Uçmaq istər dəli könlüm, məni qldır havalandır

Gəmiyəm dalğaya həsrət, vulqanam sönmərəm əlbət

Sevgilim yar bu hicabi, meyi süz canla bulandır

Və'də verdin gələcəksən, sevilib həm sevəcəksən

Yorğunam gözləməyindən, demə vəslin də yalandır

Demisən gəlmə peşimdən, tapmadım baş bu işinlən

Gözyaşım axdı bulaq tək, Bəxşiyə qəm Savalandır

2015/07/29

**Qəsidə**

Hər dəm bu dəmim dərdi-qəm ilə yatan oldu

Əşşi bu necə taleh idi hal qatan oldu

Yazdım qəzəli topladığım oldu qəsidə

Seir alqısı öldü hamı divan satan oldu

Bir ömrdü gəzdim bu sağır şeirə əruzə

Vəzn vuğunu oldumsa hicalar çatan oldu

Dərbarə deyən şairimiz sikkələr aldı

Gün çıxsa mübarək səhərim günbatan oldu

Təb' bir gecə olsa buraxar şairi Bəxşi

Şeirim də yarandı yuxu başdan atan oldu

2010/08/28

**Nə bilə idim?**

Zəngarı könüldən atacaqdım nə bilə idim?

Zəncirə çəkilmiş yatacaqdım nə bilə idim?

Mənlən doğulan bir yaşayan ağrılar oldu

Dustağı evimlə qatacaqdım nə bilə idim?

Gənclik hayatım dalğanı yarmaqla sovuşdu

Yorğun qocalıqla batacaqdım nə bilə idim?

Söndüm kül olub sovrularaq torpağa döndüm

Zülmətlər alıb gün satacaqdım nə bilə idim?

Öz kimliyimi özgə çalıb çapdı apardı

Çirkin kola min gül taxacaqdım nə bilə idim?

Bir ömrüdü qürbət mənə doğma vətən oldu

Doğma elimə yad çatacaqdım nə bilə idim?

2010/06/24

**Ata bilsən ataram**

Adımı qanlı könüldən ata bilsən ataram

Dərdimi duymalı oldun, yata bilsən yataram

Ayrılıq mənlə yaşar sa o mənimlə doğulub

Hicrini hicran oduyla qata bilsən qataram

Bağrını qəm dağı dağlar, amma mən sönməmişəm

Bu dənizdə batısan, sağ bata bilsən bataram

Gəl mənimlə meyi-nab ol, ax süzül badələrə

Bu dəli dalğalara çat, çata bilsən çataram

Məni gər imkanı olsa sovurub satma yada

Hər nəyim var çapılıb, “ah” sata bilsən sataram

2010/05/26

**Süfi-sifət**

Süfi-sifətəm dəhridə olmuş belə andım

Rəbbi tanıdım insan olarkən necə qandım

Gəh camə geyib eldar olub xalqla süründüm

Gəh Məcnun olub badə içib odla büründüm

Bir ömrüdü sözlər təməlin şeirlə hördüm

Qafil yaşadım kötləni zəncirdə gördüm

Diksindim ama bir də yatıb cəhlə qovuşdum

Darkar küçədən axsayaraq məndə sovuşdum

“Ey vay” taparaq nankor olub çoxlu itirdim

Ax vay talanıb təkrar olub ömrü bitirdim

2010/06/09

**Varlıq**

Qarğa adı mənimdisə yumurtası bəs de hanı?

Vətən adı mənimdisə bölünməyi alar canı

İran deyib torpağımı talan edıb parçalama

Piçaq götür doğra məni torpağıma gə tök qanı

Anam mənə bal dilimi veribdir ay əskik adam

Südün dadı dilimdədir anadilimi rəsmi tanı

Hər nə qədər əlləşəsən ad qoyasan ölkəmə sən

Ad verilib öncə ona səndə buna anlaq hanı?

Uşaq gedir mədrəsəyə beyninə nə yükləyisən?

Dayan görüm, töşkünü dər, türküdü qaydanın kanı

Günəş saçır sa saçacaq baxmalısan görməlisən

Sil gözünün paxırların çoxludu Babəkin sanı

Bu milləti nə vaxtacaq dustaqılan qorxudusan?

Sel kimi bir gün yıxacaq varlığına xor baxanı

2010/05/21

**Güvəncələrim**

Üzülmə ay könlüm, mənim də yarım var

Elim böyük eldir, gözəl diyarım var

Anam dili baldır, özəl məramım var

Düşüncə şahı, şair Şəhriyarım var

2010/05/10

**İstər könül**

İstirəm bəndi qıram dustaqdan artıq bezmişəm

Bəndəyi-bənd olmağa min-min qulam istər könül

Xəstəyəm yoxdur əlac dərmanə acir qalmışam

Ayrılıq zəhri içər ancaq muğam istər könül

İstirəm səslər ucaldıb susmağın qəddin ovam

Qalmışam lal olmuşam dildən pəyam istər könül

Məndən artıq əl çəkin Leylamə Məcnun olmuşam

Bəxşiyəm qan ağlaram məndən qiyam istər könül

2010/05/05

**Utan, yığış, Türkü danış**

Ay ucuz etmə xahış, utan, yığış, Türkü danış

Atan da ömür boyu yapdı çalış, utan, yığış, Türkü danış

Anan da danışırdı qızıl-gümüş, utan, yığış, Türkü danış

Azər ol köz kimi yan alış yanış, utan, yığış, Türkü danış

Özün də heç bilmədən oldun Parış, utan, yığış, Türkü danış

Eşidibsən qalın dəri olar qayış? utan, yığış, Türkü danış

Üz-gözün daha olub qırış-qırış, utan, yığış, Türkü danış

Uşaq idin yeyirdin lavaş pencəyiş, utan, yığış, Türkü danış

Varın var özünə, yoxsulla bölüş, utan, yığış, Türkü danış

Vətənin darda qalıb, gəl bir vuruş, utan, yığış, Türkü danış

Başına çırpım sənin qarpız- yemiş, utan, yığış, Türkü danış

Gəl oxu şeir ü qəzəl deyiş yazış, utan, yığış, Türkü danış

Gəl ədəb məclisinə sökül-quruş, utan, yığış, Türkü danış

Gəl gamışın gölünə yuyun çimiş, utan, yığış, Türkü danış

Gəl bura yarış çalış əlləş çəkiş, utan, yığış, Türkü danış

Gəl bizimlə tökül qatış qayna qarış, utan, yığış, Türkü danış

Gəl qulaq ver mahnıya muğamı duyuş, utan, yığış, Türkü danış

Gözəlim baldı dilin de gül danış, utan, yığış, Türkü danış

Qağa gəl el içinə ellə barış, utan, yığış, Türkü danış

Qurban olum, icbar deyil Farsca deyiş, utan, yığış, Türkü danış

Satırsan şirin dilin qəpik-quruş, utan, yığış, Türkü danış

Yenə etdin it ilə seviş barış, utan, yığış, Türkü danış

Yenə də yağdı yağış yağdı yağış, utan, yığış, Türkü danış

Çoban da çöldə bilər neçə çəpiş, utan, yığış, Türkü danış

Duy balam Nəsimini haqqa çatış, utan, yığış, Türkü danış

Kəndir ol gəl biz ilə hörün sarış, utan, yığış, Türkü danış

Sənə nə üçün sataşıb gülsün Talış? utan, yığış, Türkü danış

Sən də ol Çənlibelli Sarıqəmış, utan, yığış, Türkü danış

Sənə qurban elərəm buzov-gamış, utan, yığış, Türkü danış

Buraxırsan sən bu Əfqan ləhnini? Gəl bir sürüş, utan, yığış, Türkü danış

Toyda ol bir sarı sim sazla öpüş, utan, yığış, Türkü danış

Torpağın talan olur gəl bir döyüş, utan, yığış, Türkü danış

İgidim Babək kimi bayraq götür xalqla yürüş, utan, yığış, Türkü danış

Gözəl balam ricam budur Xahış-Xahış: utan, yığış, Türkü danış

2010/04/30

- Parış: Pars, fars, Panfars, Antiturk.

**İzah:**

Bu tənz şeir Əlirzanın ilk şeiridir. Bu şeiri o öz anadilin bəyənməyən; Türkü dilin ar və man bilən və Fars dilinə danışan və özgə dilinə danışmağa şişən; güvənən və öyünən asimilə olmuş soydaşlarımıza demişdi. Doğurdan da belə özündən özgələşmiş Türklər gərək utanalar; yığışalar; ədabazlıqdan əl çəkələr və öz anadillərində danışalar. Böyük şairimiz Bəxtiyar Vahabzadə demişkən: "Ey öz doğma dilində danışmağı ar bilən/ Bunu iftixar sayan/ Modalı ədəbazlar/ Qəlbinizi oxşamır qoşmalar, telli sazlar?/ Qoy bunlar mənim olsun/ Ancaq Vətən çörəyi/ Bir də ana ürəyi/ Sizlərə qənim olsun". Sayqılarla. İxtiyar Bəxşi

# Bayatılar

Fələk mənlən yarışdı        könlüm qəmlən barışdı
Doğma elim yad oldu          dərdim dərdə qarışdı

***

Al çiçəyim ol sarı       kamançayam çal tarı
Göyərçinəm səp darı    qəribsədim gül barı

***

Qocalıq günü çatdı                    atıma köçü çatdı
Gəl görüm gözəl üzün              ömrümün sonu çatdı

***

Əzizinəm ağlama              vətən yolun arama
Yaram çoxdur eyibdir    duz səpəsən yarama

***

Dəli könlüm dağlandı              dilim yada bağlandı
Yolum yardan yan düşdü        cavan ömrüm talandı

***

Bulaq üstə bu qızlar      çeşmə donar su buzlar
Sevgililər ayrılsa            hey ağlayar hey sızlar

***

Doğmalarım yad oldu      Döşmənlərim şad oldu
Topladığım bölündü         məndən qalan ad oldu

***

Kölə oldum satıldım dustaqlara atıldım

Nə suçun sahibi idim Mücrümlərə qatıldım?

***

Tumurcuqlar açarlar ətr iysini saçarlar

Qoyma dərdin el bilsin hamı səndən qaçarlar

***

Sarmaşıqlar dolaşdı dərdim dağları aşdı

Sevinc məndən yan keçdi könlüm qəmlən calaşdı

***

Şimşək olub çaxaram sel tək daşıb axaram

Bağdan qızılgül dərrəm yar telinə taxaram

***

Gürzə dilin çaldı məni yal-yamaca saldı məni

Almaz kimin yaşların qul tək alıb satdı məni

***

Yaylığını yel atdı oxun qəlbimə batdı

Qurban olum Tanrıya məni vurğun yaratdı

***

Mıncıq ipə düzüldü qara gözlər süzüldü

Fələk məni ayırdı        əlim yardan üzüldü

***

Yarlan qərar örüşdü        adaqlılar görüşdü

Toy zurnası səsləndi    uzun saçlar hörüşdü

***

Buzlayaram qar kimi            vəfalıyam yar kimi

Məndən onu ayırma         cingildərəm tar kimi

***

Sıldırımlı qayalar              otlan qurduq tayalar

Qərib yerdə çürüdüm          haçan məni sayalar?

***

**Can Azərbaycan**

Anama söylədim can

Bacıma söylədim can

Balama söylədim can

Sevgilimə söylədim can

Bəlkə də sən candan yarandın

Azərbaycan



**Əlirza Bəxşi 1975-2015**

**Can Azərbaycan**

Anama söylədim can

Bacıma söylədim can

Balama söylədim can

Sevgilimə söylədim can

Bəlkə də sən candan yarandın

Azərbaycan